**UDC:** 159.9.
**LBC:** 84.4; 88.5
**MJ №** 278
10.33864/2617-751X.2025.v8.i2.189-208

# The Characteristics of Social Protection for Individuals Affected by War

**Madina Asgerzade***

**Abstract.** This research addresses the measures, various projects, and legislative mechanisms related to the integration and rehabilitation of individuals who have been subjected to social, psychological, economic, physical, moral, and other hardships as a result of war. The study examines the profound and long-lasting impact of wars, which create large-scale trauma, on both personal and public life. The primary subjects discussed here encompass a wide group, including civilians, military personnel who have been killed or injured in combat, their family members, refugees, and internally displaced persons. Social protection measures aimed at ensuring their long-term well-being require a systematic policy and are funded by state budgets, as well as the income from the aid funds supported by various organizations, non-governmental organizations, public associations, and individual contributions. Although it may not be possible to completely erase the traces of war, rehabilitation measures tailored to the needs of those suffering from the consequences of war, along with programs aimed at social integration, can help alleviate the current situation. International experience demonstrates that the effectiveness of ensuring the return of war-affected individuals to their routine lives lies in having a dynamic and individualized social protection mechanism. The social policies directed at these individuals are more effective when they establish an interconnected approach, combining rehabilitation, psychological support, legal assistance, and economic protection measures. Studies show that, in addition to providing financial assistance to war-affected individuals, it is essential to implement consistent, human-centered approaches that will increase their participation in society.

**Keywords:** social protection, family of a martyr, war veterans, social policy, persons with war-related disabilities, psychological services

---

* PhD student,
Department of Psychology, Baku State University; Baku, Azerbaijan
E-mail: m.asgarzade@yandex.com
https://orcid.org/0009-0003-2788-8134

**To cite this article:** Asgerzade, M. [2025]. The Characteristics of Social Protection for Individuals Affected by War. *“Metafizika” journal, 8*(2), pp.189-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.189-208

***Article history:***
*Received: 29.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 159.9.
**ББК:** 84.4; 88.5
**MJ №** 278
10.33864/2617-751X.2025.v8.i2.189-208

# Социальная Защита Лиц, Пострадавших от Войны

**Мадина Аскерзаде***

**Абстракт.** Это исследование охватывает меры, различные проекты и законодательные механизмы, связанные с интеграцией и реабилитацией лиц, столкнувшихся с социальными, психологическими, экономическими, физическими, моральными и другими трудностями вследствие войны. Исследовательская работа анализирует глубокое и долгосрочное воздействие войн, вызывающих масштабные травмы, на личную и общественную жизнь. Основными субъектами, рассматриваемыми в данном контексте, являются широкая группа: гражданское население, военнослужащие, погибшие или раненые в ходе войны, их члены семей, беженцы и внутренне перемещенные лица. Социальная защита, направленная на обеспечение их долгосрочного благополучия, требует системной политики, финансируемой как из государственного бюджета, так и за счет средств, поступающих от различных организаций, неправительственных организаций, общественных объединений и частных лиц. Хотя полностью стереть следы войны невозможно, меры реабилитации, соответствующие потребностям пострадавших, а также программы, направленные на социальную интеграцию, могут помочь смягчить текущее положение. Международный опыт показывает, что для обеспечения возвращения пострадавших от войны к обычной жизни необходимо, чтобы механизм социальной защиты был динамичным и адаптированным к индивидуальным потребностям. Социальная политика, ориентированная на этих людей, более эффективна, если она включает взаимосвязь мер по реабилитации, психологической поддержке, юридической помощи и экономической защите. Исследования показывают, что помимо материальной помощи пострадавшим от войны, важно также внедрять последовательные и ориентированные на человека подходы, которые будут способствовать их большему участию в обществе.

**Ключевые слова:** социальная защита, семья шехида, ветераны войны, социальная политика, лица с инвалидностью вследствие войны, психологическая помощь

---

* Аспирант,
Бакинский Государственный Университет, Кафедра Психологии; Баку, Азербайджан
E-mail: m.asgarzade@yandex.com
https://orcid.org/0009-0003-2788-8134

**Цитировать статью:** Аскерзаде, М. [2025]. Социальная Защита Лиц, Пострадавших от Войны. *Журнал «Metafizika», 8(2),* с.189-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.189-208

***История статьи:***
*Статья поступила в редакцию: 29.01.2025*
*Отправлена на доработку: 28.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 159.9.
**KBT:** 84.4; 88.5
**MJ №** 278
10.33864/2617-751X.2025.v8.i2.189-208

## Müharibədən Zərər Görən Şəxslərin Sosial Müdafiə Xüsusiyyətləri

**Mədinə Əsgərzadə***

**Abstrakt.** Bu tədqiqat müharibə nəticəsində sosial, psixoloji, iqtisadi, fiziki, mənəvi və s. çətinliklərə məruz qalan şəxslər və onların cəmiyyətə inteqrasiyası, reabilitasiyası ilə bağlı tədbirləri, müxtəlif layihələri, qanunvericilik mexanizmlərini özündə əks etdirir. Tədqiqat işi geniş miqyaslı travmalar yaradan müharibələrin şəxsi və ictimai həyatda dərin və uzunmüddətli təsirini araşdırır. Burada bəhs olunan əsas subyektlər mülki əhali, müharibədə həlak olan və ya yaralanan hərbi qulluqçular, onların ailə üzvləri, qaçqın və məcburi köçkünlər olmaqla geniş bir qrupu əhatə edir. Onların uzunmüddətli rifahını təmin etməyə yönəlmiş sistemli siyasət tələb edən sosial müdafiə tədbirləri həm dövlət büdcəsi, həm də müxtəlif təşkilatların, Qeyri-hökümət təşkilatların, ictimai birliklərin, ayrı-ayrı şəxslərin maliyyələşdirdiyi yardım fondlarından əldə olunan gəlirlərlə təmin olunur. Müharibənin yaratdığı izləri tamamilə silmək mümkün olmasa da, müharibədən əziyyət çəkən şəxslərin ehtiyaclarına uyğun olaraq reabilitasiya tədbirləri, sosial inteqrasiyaya yönəlmiş proqramlarla çıxış edərək mövcud vəziyyəti yumşaltmaq mümkündür. Beynəlxalq təcrübə göstərir ki, müharibədən zərər görən şəxslərin yenidən rutin həyatlarına qayıtmasının təmin olunmasında sosial müdafiə mexanizminin dinamik və şəxsə uyğunlaşdırılmış olması vacibdir. Bu şəxslərə yönələn sosial siyasət reabilitasiya, psixoloji dəstək, hüquqi yardım və iqtisadi müdafiə tədbirlərinin qarşılıqlı əlaqədə qurulması ilə daha effektiv təsirə malikdir. Araşdırmalar göstərir ki, müharibədən əziyyət çəkən şəxslərin sosial müdafiəsi istiqamətində maddi yardım göstərilməsi ilə yanaşı, onların cəmiyyətdə iştirakını artıracaq ardıcıl və insan mərkəzli yanaşmaların tətbiqi vacibdir.

**Açar sözlər:** sosial müdafiə, şəhid ailəsi, müharibə veteranları, sosial siyasət, müharibə əlilliyi olan şəxslər, psixoloji xidmət

* doktorant,
Bakı Dövlət Universiteti, Psixologiya Kafedrası; Bakı, Azərbaycan
E-mail: m.asgarzade@yandex.com
https://orcid.org/0009-0003-2788-8134

**Məqaləyə istinad:** Əsgərzadə, M. [2025] Müharibədən Zərər Görən Şəxslərin Sosial Müdafiə Xüsusiyyətləri. *“Metafizika” jurnalı, 8*(2), səh.189-208.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.189-208

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 29.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Təəəssüf ki, müharibələr döyüş meydanlarındakı itkilərlə məhdudlaşmır, müharibənin ağır fəsadları şəxsin psixoloji sağlamlığına, sosial həyatına və cəmiyyətə inteqrasiya prosesinə də dərindən təsir göstərir. Müharibədən zərər görən şəxslərin yenidən cəmiyyət həyatına inteqrasiyası uzunmüddətli və kompleks bir tədbirdir. Müharibələr cəmiyyətin inkişafına mənfi təsir göstərməklə yanaşı, mənəviyyata, estetik zövqə, insanların mədəni yaşamına da zərbə vurur. Ta qədim zamanlardan günümüzədək aparılan müharibələr insan tələfatı, infrastrukturun dağıdılması, əhalinin qaçqın vəziyyətinə salınması, vətəndaşların həyat səviyyəsinin aşağı düşməsi kimi nəticələrlə xarakterizə edilmişdir.

Dünya əhalisinin təqribən 30 faizi yəni 1,5 milyarda yaxın insan münaqişə və ya geniş mütəşəkkil cinayətkar fəaliyyətin təsirinə məruz qalan regionlarda yaşamaqdadır [Report.az, 2016]. Müharibədən zərər görən şəxslər dedikdə, sözügedən regionlarda yaşayan mülki əhali, müharibədə həyatını və ya sağlamlığını itirən şəxslər, onların ailə üzvləri, qaçqın və məcburi köçkünlər nəzərdə tutulur. Bu şəxslərin gələcək taleyinə birbaşa və ya dolayı yolla təsir edən “müharibə” məfhumu onların həyatının psixoloji, iqtisadi və sosial aspektlərində dərin iz qoyaraq ciddi problemlər yaradır.

Müharibədən zərər görən kateqoriyaların sosial sabitliyini təmin etmək məqsədilə bir çox ölkələrdə atılan addımlarla bağlı müxtəlif strategiyalar və qanunvericilik aktları tətbiq olunması həmin şəxslərə sosial dəstək göstərilməsi, həyati keyfiyyətlərinin yüksəldilməsi və cəmiyyətə tam şəkildə adaptasiya olmasını təmin etmək məqsədi güdür. Əsas hədəf nöqtəsi isə, müharibədən əziyyət çəkən şəxslərin hüquqlarını qorumaq, sosial müdafiəsini təmin etmək və onların həyat şəraitini yaxşılaşdırmaqdır.

## 2.Şəhid ailə üzvləriylə bağlı siyasət

Ölkəmiz strateji mövqeyi, milli sərvətləri və digər amillərə görə daim yadelli işğalçıların diqqət mərkəzində olmuşdur. 1991-ci ilin 18 oktyabrında ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra erməni qəsbkarları tərəfindən ərazimizin bir hissəsi işğal edilmişdir.

30 ilə yaxın torpaqlarımızın bir hissəsi düşmən əsirliyində qalmış və göstərilən böyük şücaətlə düşməndən təmizlənmişdir. Döyüşlərdə böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucalan şəxslər, qazilər və onların ailə üzvləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir.

“Şəhidlik” digər müsəlman ölkələrində olduğu kimi ölkəmizdə müqəddəs bir məfhum kimi qəbul edilir. Qəhramanlıqla döyüşüb bu yolda şəhid olan şəxslər və onların yaxınlarına dövlətimiz sahib çıxır, belə ki, şəhidlərin xatirəsinin qorunub-saxlanması və onların ailəsinin sosial təminatlarının həyata keçirilməsi ilə bağlı bir çox qanunvericilik mexanizmləri hazırlanmış, aidiyyəti

qurum və fondlar yaradılmış, bir sıra layihələr hazırlanmışdır. Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətləri orqanları kimi qurumlar bu işdə qarşılıqlı əməkdaşlıq edir. “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının” təsdiq olunması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanunu və s. kimi qanunvericilik aktlarında şəhid adının qorunması, onların xatirəsinin əbədiləşdirilməsi və şəhid ailəsi üzvlərinə edilən güzəştlər öz əksini tapmışdır.

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və gələcək nəsillərə ötürülməsi üçün qəbirüstü abidələrin, Xatirə komplekslərinin salınması, adlarının küçələrə, meydanlara, mədəni maarif ocaqlarına, təhsil müəssisələrinə, hərbi və mülki gəmilərə verilməsi nəzərdə tutulmuşdur. Şəhid ailəsi üzvlərinə edilən güzəştlər sırasına onlara pensiya və digər təminatlar verilməsi, tibbi və psixoloji xidmətlər göstərilməsi, məşğulluq məsələləri, ödənişli təhsil alan ailə üzvlərinin təhsil xərclərinin dövlət tərəfindən qarşılanması, müxtəlif vergi güzəştləri və s. daxildir.

Şəhid ailə üzvləri dedikdə, Qanunla müəyyən olunmuş qaydada şəhidin arvadı (əri), valideynləri, 18 yaşına çatmamış uşaqları, uşaq evində tərbiyə olunan bacı və qardaşları, qanunla onları saxlayan şəxs yoxdursa, baba və nənələri nəzərdə tutulur (Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi Qaydaları, 2007). Bu şəxslərin maddi rifahının yüksəldilməsi məqsədilə pensiya və digər sosial ödənişlər, birdəfəlik siğorta ödənişi (11000 manat), həmçinin dəfn xərcləri ilə bağlı 3000 manat pul vəsaiti ilə təmin olunurlar.

Bundan başqa, şəhid ailələrinin məşğulluq məsələləri aidiyyəti qurumların daim diqqət mərkəzindədir. Sözügedən şəxslərə bu qəbildən göstərilən güzəştlər sırasına iş yerində işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda onlara üstünlük verilməsi, müəssisənin, təşkilatın fəaliyyəti dayandıqda işlə təmin edilmə məsələsi daxildir. Həmçinin sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı şəhid ailəsi üzvlərinə üstünlük verilir (Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Azərbaycan Respublikası Qanunu, 1993). Şəhid ailəsi üzvlərinin və müharibə əlilliyi müəyyən edilən şəxslərin məşğulluq məsələlərinin həllində Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən “Məşğulluq marafonu” diqqəti xüsusi olaraq cəlb edir. “Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında keçirilən

marafon zamanı işəgötürənlər tərəfindən müxtəlif vakansiyalar təqdim edilərək minlərlə şəxs işlə təmin edilir. Vətən uğrunda savaşlarda şəhid olmuş qəhrəmanlarımızın yaxınlarına və bu savaşlarda sağlamlıqlarını qurban vermiş qazilərimizin rifahına, o cümlədən məşğulluğunun təminatına dəstək verilməsi də vətənpərvərlik təzahürü, dövlətin siyasətinə mühüm töhfədir [Sosial.gov.az, 2021].

Şəhid ailə üzvlərinin yaşayış sahəsi ilə bağlı təminat məsələsi yerli icra hakimiyyəti orqanlarının səlahiyyətləri çərçivəsində həll edilir və ilk növbədə mənzil təminatına ehtiyacı olan şəxslərin yaşayış sahəsi ilə təmin olunması əsas prioritetdir. Digər güzəştlər sırasına şəhidin ailə üzvlərinə öz arzularına əsasən fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda və yaşayış yerindən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi ilə təmin olunma, həmçinin bağçılıq birliyinə qəbul zamanı onlara üstünlük verilməsi daxildir. Habelə şəhid ailəsi üzvləri mənzil və ya fərdi ev alarkən notariat fəaliyyəti dövlət rüsumu ödənilmədən həyata keçirilir.

2021-2025-ci illər ərzində Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə şəhid ailələri, müharibə əlilləri və digər həssas qrupa aid olan insanların mənzillə tam təminatının həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramın icrası ilə sözügedən şəxslərin mənzillə təmin olunması uğurla həyata keçirilir. Belə ki, “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” adlı Sərəncamda II Qarabağ müharibəsi zamanı hərbi əməliyyatlar nəticəsində şəhid olan şəxslərin ailələrinin, o cümlədən müharibə səbəbindən əlilliyi müəyyən edilən şəxslərin mənzil və ya fərdi evlərlə təminatı nəzərdə tutulur.

Təbii ki, sözügedən güzəştlər şəhidlərin tökülən qanını, şəhid ailəsi üzvlərinin göz yaşlarını kompensasiya etməsə də, hər kəs torpağı uğrunda canını əsirgəməyən vətən övladlarını unutmamalı, xatirəsini daim uca tutmalı və şəhidin əmanətlərinə sahib çıxmalıdır. Bir sıra qurumlar, təşkilatlar və ayrı-ayrı şəxslər tərəfindən şəhidin adının uca tutulması və onun ailə üzvlərinin maddi-mənəvi, hüquqi sosial, psixoloji, tibbi və s. tələbatlarının ödənilməsi məqsədilə bir sıra layihələr həyata keçirilir.

Bu layihələrdən biri hər il keçirilən “Mənim atam qəhrəmandır” layihəsidir. Bu layihə Müdafiə Nazirliyinin dəstəyi “Fire Land Production”ın təşkilatçılığı ilə keçirilir. Layihənin məqsədi Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın xatirələrini yad etmək, onların övladlarına, ailələrinə xalq qayğısının daim olacağını bir daha hiss etdirməkdir [Mod.gov.az, 2021].

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Heydər Əliyev Fondu və Müdafiə Nazirliyinin dəstəyi ilə

“Əsgərə salam” hərbi-sosial layihəsi həyata keçirilir. Bu layihə ordumuzun gücünün və xalqla birliyinin bariz nümunəsi, vətən uğrunda canından keçən şəhidlərimizin ruhuna ehtiramın və şəhidin ailə üzvlərinə qayğının təcəssümüdür. Layihə iştirakçıları diqqət çəkmək məqsədilə fərdi və ya kollektiv şəkildə hərbi salamlama vəziyyətində şəkil çəkdirərək sosial şəbəkə hesablarında #esgeresalam #dovletqacqinkom həştəqlərini qeyd etməklə paylaşırlar.

“Unudulmazlar” saytı və mobil tətbiqi 31.10.2022-ci il tarixində fəaliyyətə başlamışdır. Layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən həyata keçirilmişdir. Layihənin əsas məqsədi ərazi bütövlüyümüzün bərpa olunması uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız, mülki şəhidlərimiz və 44 günlük Müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxsləri xalqa daha yaxından tanıtmaqdır. Bu saytda Prezident İlham Əliyevin müharibə zamanı paylaşdığı mesajlar, şəhid və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin həyat hekayələrini özündə cəmləşdirən məlumatlar, şəkil və videolar öz əksini tapır.

2023-cü ildə fəaliyyətə başlayan Qarabağ KOB-ları layihəsi şəhid ailələri, müharibə veteranları və onların ailə üzvlərinin məşğulluğuna dəstək verilməsi məqsədi daşıyır. Belə ki, KOBİA tərəfindən təşkil olunan təlimlər vasitəsilə layihədə iştirak edən şəxslərin biznes bilik və bacarıqlarının artırılması ilə onların məşğulluq faizi yüksəldilmişdir. Bundan başqa, Qarabağ KOB-ları layihəsi çərçivəsində işğaldan azad edilmiş torpaqlara köçürülən sakinlərin məşğulluq məsələləri ön plana çəkilərək iqtisadi fəal əhalinin artıq 86 faizinin məşğulluğu təmin edilmişdir.

**3.Postmüharibə dövründə həyata keçirilən digər layihə “Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi”**

Postmüharibə dövründə həyata keçirilən digər layihə “Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi” adlanır. Layihənin əsas məqsədi şəhidin ailə üzvləri və müharibə əlillərinə xüsusi diqqətin göstərilməsi və maarifləndirilmənin aparılması ilə bağlı müxtəlif sosial reklamlar, çarxlar və qısametrajlı filmlərin çəkilməsidir. adlanır. Layihənin əsas məqsədi şəhidin ailə üzvləri və müharibə əlillərinə xüsusi diqqətin göstərilməsi və maarifləndirilmənin aparılması ilə bağlı müxtəlif sosial reklamlar, çarxlar və qısametrajlı filmlərin çəkilməsidir.

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2021-ci il tarixli 1380 nömrəli Fərmanı ilə “*Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri*” yaradılmışdır. Mərkəzin yaradılmasında əsas məqsəd ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid

olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin sürətli və dəqiq icrasını təmin etməkdir.

Vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyəti ilkin mərhələdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzlərində, daha sonra isə xidmət göstərilən şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təşkil edilmişdir (Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası, 2021). Vahid əlaqələndirmə mərkəzlərində göstərilən birbaşa (yerində), səyyar və Çağrı mərkəzi" vasitəsilə xidmətlər "bir pəncərə" prinsipi ilə vətəndaş məmnunluğu nəzərə alınaraq həyata keçirilir.

Dövlət başçısının göstərişi ilə postmüharibə dövründə şəhid ailələri və müharibə veteranları ilə bağlı ardıcıl geniş miqyaslı sosial dəstək proqramları həyata keçirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə şəhid ailəsi üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,7 min şəxsə birdəfəlik ödəmə təyin olunub [Azərtac, 2025].

Həmçinin şəhid ailəsi üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənərək, onlara 6,8 min mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567 avtomobil verilmiş, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 75 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilmişdir. Vətən müharibəsi ilə əlaqədar əlilliyi müəyyən edilən 2291 şəxs 68 min reabilitasiya vasitəsi, o cümlədən 491 şəxs 608 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunmuşdur.

O cümlədən, şəhidin ailə üzvləri və müharibə iştirakçıları olan 26 min şəxsin məşğulluğu təmin edilmişdir. Ümumilikdə II Qarabağ müharibəsindən hazırkı dövrədək sosial dəstək paketi 131 min şəxsi əhatə etmiş və sözügedən şəxslərə dəstək yönümlü 378 min xidmət göstərilmişdir.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan və yaralanan şəxslərin ailələrinin sosial müdafiəsini təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlərə əlavə dəstək göstərilməsi məqsədilə Dövlət başçısının 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "YAŞAT" Fondu yaradılmışdır. Fondun əsas

istiqaməti şəhid ailələri və qazilərin məişət şəraitinin yaxşılaşdırılması, təhsil, peşə hazırlığı, yaradıcı potensialın inkişafı, bu kateqoriyadan olan insanların müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi və istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasıdır [Respublika-news.az, 2024].

Şəhid ailəsi üzvlərinin hərtərəfli sosial müdafiəsinin təşkili dövlətin sosial siyasətinin prioritet istiqamətini təşkil etsə də, aparılan araşdırma və təhlillər göstərir ki, hüquqi və institusional çərçivədə təşəbbüskar addımlar atılmasına, yeni təklif və tövsiyələrin edilməsinə ehtiyac vardır. Bu sahədə effektiv siyasət yürütmək və sosial müdafiənin səmərəli təşkili üçün şəhid ailəsi üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə yeni modellərin tətbiqi zəruri hesab olunur.

Cəmiyyətin ən həssas sosial qruplarından biri olan şəhid ailələrinin sosial müdafiəsi sahəsində innovativ yanaşmalardan biri kimi onların inteqrasiya olunmuş sosial xidmət mərkəzlərində bir araya gətirilməsi təklif oluna bilər. Bu cür mərkəzlərdə hüquqi, psixoloji və tibbi xidmətlərin vahid platforma üzərindən göstərilməsi, xidmətin əlçatanlığını və keyfiyyətini artırmaqla yanaşı, psixososial dəstək mexanizmlərinin daha da gücləndirilməsinə xidmət edə bilər.

Təklif olunan mərkəzlərin fərqləndirici xüsusiyyətlərindən biri də göstərilən xidmətlərin bir hissəsinin məhz şəhid ailəsi üzvləri tərəfindən həyata keçirilməsi ola bilər. Məsələn, Birinci Qarabağ müharibəsində şəhid olmuş şəxsin övladı tərəfindən 44 günlük Vətən müharibəsində şəhid olmuş şəxsin ailə üzvünə psixoloji dəstək verilməsi qarşılıqlı empatiya və emosional anlaşmanı artıraraq, daha təsirli yardım modelinin formalaşmasına səbəb ola bilər. Bu yanaşma xidmətin effektivliyini artırmaqla yanaşı, şəhid ailəsi üzvlərinin cəmiyyətə inteqrasiyasını və peşəkar inkişafını stimullaşdıra bilər.

Bildiyimiz kimi, 44 günlük Vətən müharibəsində şəhid olanların əksəriyyəti məhz işğal dövründə dünyaya gəlmiş gənclər idi. Onların bu müqəddəs amal uğrunda göstərdikləri fədakarlıq, Birinci Qarabağ müharibəsi şəhidlərinin davamçıları kimi dəyərləndirilə bilər. Bu mənəvi bağlantının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mərkəzlərin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edə bilər. Belə ki, şəhid ailəsi üzvlərinin öz acı təcrübələrini xidmət şəklinə salaraq digər ailələrə yardım etmələri, mənəvi mirasın yaşadılmasına, kollektiv şəfa modelinin inkişafına və milli həmrəyliyin gücləndirilməsinə töhfə verəcəkdir.

Təklif olunan mərkəzin nizamnaməsində və ya mərkəzin yaradılması ilə bağlı qanunvericilik sənədində idarəetmə və xidmət heyətində şəhid ailəsi üzvlərinin təmsil olunması əks olunmalıdır.

Yaradılacaq bu mərkəz, şəhid ailələrinin sosial, psixoloji, hüquqi və fərdi ehtiyaclarını təmin edəcək çoxşaxəli və çevik bir qurum kimi nəzərdə tutulur.

Mərkəzin əsas məqsədi, yalnız xidmət təqdim etmək deyil, eyni zamanda şəhid ailələrinin özlərinin də bu xidmətlərin yaradıcı və icraçı tərəfi olmasına şərait yaratmaqdır. Belə ki, I Qarabağ müharibəsində şəhid olmuş şəxslərin ailə üzvləri ilə 44 günlük Vətən müharibəsində şəhid olanların yaxınları arasında empatik bağ və ortaq təcrübələr mövcuddur. Bu bağ üzərində qurulan qarşılıqlı dəstək mühiti daha səmərəli sosial inteqrasiyanı təmin edə bilər.

Mərkəzdə göstəriləcək xidmətlər əsas və yardımçı olmaqla kateqorizə edilə bilər. Əsas xidmətlər dedikdə, psixoloji və hüquqi yardım, eləcə də sosial inteqrasiya modelli məşğulluq imkanlarının təşkili nəzərdə tutulur. Psixoloji yardım çərçivəsində, peşəkar psixoloqlarla yanaşı şəhid ailəsi üzvləri arasından seçilmiş və bu sahədə təlim almış şəxslərin də fəaliyyət göstərməsi yanaşması yardımın emosional təsir gücünü yüksəldə bilər. Bununla yanaşı tanınmış psixoloqların könüllü şəkildə mərkəzdə iştirakı təşviq olunmalı, bu yolla cəmiyyətin müxtəlif təbəqələrinin dəstəyindən faydalanmaq imkanı yaradılmalıdır.

İnformasiya təminatının günbəgün inkişaf etdiyi bu dövrdə belə təcrübə göstərir ki, şəhid ailəsi üzvlərinin bir qismi hüquqları barədə məlumatlı deyil. Bu isə onların sosial müdafiə imkanlarından yetərincə istifadə edə bilməməsinə gətirib çıxarır. Mərkəzdə göstərilməsi nəzərdə tutulan hüquqi xidmət vasitəsilə bu problemin aradan qaldırılması ilə yanaşı, burada fəaliyyət göstərəcək hüquqşünasların, xüsusilə şəhid ailəsi üzvləri arasından seçilməsi onların məşğulluğunu təmin edəcəkdir. Bu öz növbəsində hüquqi yardımın daha həssas və empatik şəkildə təqdim olunmasına zəmin yaradacaqdır.

Mərkəzdə şəhid ailəsi üzvlərinin digər tələbatlarının təmin edilməsi üçün müxtəlif yardımçı xidmətlər təklif edilə bilər. Məsələn, ölkə xaricində təhsil almaq istəyən şəhid övladlarına xaricdə təhsil imkanlarına dair konsultasiya xidmətləri təklif edilə bilər. Bu məqsədlə müvafiq sahədə fəaliyyət göstərən ixtisaslaşmış şirkətlərlə əməkdaşlıq edilərək şəhid övladlarının fərdi inkişafı və karyera planlaması dəstəklənə bilər.

Digər bir yenilikçi yanaşma isə yaradıcılıq bacarıqlarının ortaya çıxarılmasının təşviq olunmasıdır. Məsələn, aktyorluq və teatr sahəsində istedadı olan şəhid ailəsi üzvlərinin tanınmış sənətçilərlə birgə layihələrə cəlb olunması, onların psixososial inkişafına müsbət şəkildə təsir edə bilər. Bu layihələr təkcə şəhid ailələrinin şəxsi inkişafına deyil, həm də cəmiyyətin onları daha yaxından tanımasına, empatiyanın formalaşmasına və şəhid ailəsi üzvlərində özünəinamın inkişafına xidmət edəcəkdir.

Beləliklə, təklif edilən bu xidmət mərkəzi modeli şəhid ailələrinin təşəbbüskar, yaradıcı və cəmiyyətə təsir edə biləcək subyektə çevrilməsi baxımından önəmli bir vasitə kimi çıxış edə bilər. Bu mərkəz, şəhid ailələrinin

xatirələrini yaşadan, onların bu günkü həyatını daha mənalı edən bir sosial innovasiya nümunəsi ola bilər.

Mərkəzin funksionallığı sosial və psixoloji yardımla məhdudlaşmır, o cümlədən şəhid ailəsi üzvlərinin iqtisadi aktivliyinin artırılmasına, onların əmək bazarına inteqrasiyasına da yönəlir. Bu baxımdan, sözügedən mərkəzlə özəl sektor arasında əməkdaşlıq əlaqələrinin qurulması əhəmiyyətli rol oynaya bilər. Xüsusilə, ölkənin aparıcı bank sektorunu təmsil edən maliyyə institutları ilə qarşılıqlı memorandumların imzalanması mərkəzin fəaliyyətinin strateji tərəfdaşlıqlar üzərində qurulmasına şərait yaradacaraq onun etibarlılığını artıracaqdır.

Nəticədə, bu əməkdaşlıq çərçivəsində, şəhid ailəsi üzvləri arasında maliyyə, iqtisadiyyat, mühasibatlıq və digər müvafiq ixtisaslar üzrə təhsil alan və ya artıq ixtisaslı olan şəxslərin müvafiq banklarda təcrübəçi və ya ştatdankənar əməkdaş kimi iştirak etməsinə şərait yaradıla bilər. Bu proqressiv yanaşma onların bu sahədə peşəkar bacarıqlarının artırılmasına və gələcəkdə daimi işlə təmin olunması imkanlarına yol aça bilər. Eyni zamanda, mərkəzin bu sahədə karyera məsləhət xidməti təqdim etməsi və əmək bazarına inteqrasiyanı asanlaşdıracaq təlim proqramlarının həyata keçirilməsi tövsiyə oluna bilər.

Şəhid ailələrinin rifahının yüksəldilməsinə yönəlmiş ixtisaslaşmış sosial dəstək mərkəzlərinin fəaliyyət mexanizmlərinə innovativ yanaşmaların reallaşdırılmasında süni intellektin geniş şəkildə tətbiq edilməsi zəruridir. Xüsusilə, ucqar və əlverişsiz ərazilərdə yaşayan şəhid ailələrinin institusional xidmətlərdən kənarda qalmasının qarşısını almaq məqsədilə rəqəmsal platformalar vasitəsilə distant xidmət modelinin formalaşdırılması tövsiyə edilə bilər.

Yaradılacaq platforma və ya onlayn görüş və konfranslar üçün nəzərdə tutulmuş proqramlar vasitəsilə həmin rayonlarda yaşayan əhali hüquqi, psixoloji, həmçinin sosial sahələr üzrə ixtisaslaşdırılmış konsultativ xidmətlərlə təmin edilmə imkanı olacaqdır. Təklif olunan konsepsiyada bu şəxslərin adıçəkilən xidmətlərə əlçatanlığının təmin olunması üçün videokonfrans formatında çıxış əldə etmək mümkündür. Bu yanaşma xidmətlərin dezinteqrasiyasını aradan qaldırmaqla yanaşı, sosial ədalət və inklüzivlik prinsiplərinin təmin olunmasına dəstək verəcəkdir.

Əlavə olaraq, ərazi cəhətdən dezavantaja malik əhali qrupu üçün stasionar xidmət modelinin göstərilməsi ilə bağlı mərkəzin əməkdaşları tərəfindən dövri əsaslarla həyata keçirilən səyyar səfərlər (qastrol missiyalar) nəzərdə tutula bilər. Bu səfərlər çərçivəsində ehtiyacın yerindəcə qiymətləndirilməsi, sosial diaqnostika, maarifləndirici fəaliyyətlər və fərdi psixososial müdaxilə tədbirləri həyata keçirilə bilər. Bu yanaşma mərkəzin fəaliyyətini təkcə lokal

strukturda deyil, regional və milli səviyyədə kompleks sosial müdaxilə mexanizmi kimi xarakterizə edəcəkdir.

Bundan başqa, sözügedən inteqrativ mərkəz "sosial inkubasiya" funksiyanı yerinə yetirən qurum kimi səciyyələnə bilər. Belə ki, şəhid ailəsi üzvlərinin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi üçün müxtəlif banklarla birgə güzəştli kredit proqramları, biznes planlaşdırma layihələri və mentorluq xidmətləri təşkil oluna bilər.

Nəticə etibarilə, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində inteqrativ xidmət mərkəzinin yaradılması və onun çərçivəsində çoxşaxəli xidmətlərin təşkili, bu kateqoriyaya aid şəxslərin sosial inklüziyası və rifahının yüksəldilməsi baxımından innovativ və məqsədyönlü bir yanaşma kimi qiymətləndirilə bilər. Təklif olunan model təkcə institusional dəstək mexanizmini deyil, eyni zamanda şəhid ailəsi üzvlərinin cəmiyyətin aktiv iştirakçılarına çevrilməsini təşviq edir. Bu isə, dövlətin sosial siyasətinin humanist yönümünün gücləndirilməsinə xidmət edir.

**4.Müharibə veteranları və müharibə əlilliyi olan şəxslərin hüquqları**

Müharibədən zərər görən digər kateqoriya müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərdir. Bu şəxslərlə bağlı siyasətin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu ənənələr günümüzədək davam etdirilir. 26 avqust 1994-cü il tarixli "*Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında*" Fərman Ulu öndər Heydər Əliyev tərəfindən imzalanaraq müharibə əlilliyi müəyyən edilən şəxslərin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk mütərəqqi addım olmuşdur.

Müharibə əlilliyi olan şəxslərin sosial təminat məsələsi dövlətin daim diqqət mərkəzindədir. Sözügedən şəxslərə əlillik dərəcələrinə uyğun olaraq birdəfəlik sığorta ödənişi nəzərdə tutulmuşdur. Ödənişin məbləği müvafiq olaraq I dərəcə əlilliyi olan şəxslərə münasibətdə 8800 manat, II dərəcə əlilliyi olan şəxslərə münasibətdə 6600 manat və III dərəcə əlilliyi olan şəxslərə münasibətdə 4400 manat təşkil edir.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 2008-ci il tarixli 823 nömrəli Fərmanı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi güdür.

Şəxsin əlillik dərəcəsindən asılı olaraq bu məbləğ dərəcə əlilliyi olan şəxslərə münasibətdə 500 manat, II dərəcə əlilliyi olan şəxslərə münasibətdə 400 manat və III dərəcə əlilliyi olan şəxslərə münasibətdə 300 manat təşkil edir. Əmək stajından asılı olaraq müharibə nəticəsində əlilliyi müəyyən edilən

şəxslərə pensiya və ya müavinət təyin edilməsi onların sosial müdafiəsinin təmin edilməsində vacib rol oynayır.

Müharibə nəticəsində əlilliyi yaranan şəxslərin mənzil şəraitinin yaxşılaşdırılması üçün onlara dövlət tərəfindən fərdi evlərin verilməsi, habelə avtomobillərin təqdim edilməsi prosesi cari dövrədək davam etdirilir. Ötən ilin yekun hesabatında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən post müharibə dövründə 567 şəxsə, ümumilikdə 7800 imtiyazlı şəxsə avtomobil verilməsi öz əksini tapmışdır [Azerbaijan-news, 2024].

Bu şəxslərə maddi təminatla yanaşı tibbi və psixoloji xidmətlərin göstərilməsi dövlətin bu sahədə həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindəndir. Bu xidmətlər əlilliyi olan şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, funksional imkanlarının bərpası və cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə həyata keçirilir. Dövlətin bu sahədə atdığı addımlar, müharibə əlilliyi olan şəxslərin həyati keyfiyyətinin yaxşılaşdırılmasına və onların sosial mühitə adaptasiyasına mühüm töhfə verir. Onların müxtəlif tibbi avadanlıqlarla (protez vasitələr) təmin edilməsi, müalicələri üçün xarici ölkələrə göndərilməsi, reabilitasiya xidmətlərinin həyata keçirilməsi bu qəbildən aparılan işlərdəndir.

Bu şəxslərə göstərilən tibbi xidmətlər sırasına belə bir təkliflə çxış etmək məqsədəuyğun olar. Bildiyimiz kimi, süni intellektin inkişaf etməsi sosial müdafiə sisteminə innovativ həllərin inteqrasiyasına zəmin yaratmışdır. Müharibə əlilliyi olan şəxslər üçün xüsusi mobil tətbiqlərin və smart cihazların hazırlanması onların gündəlik həyat fəaliyyətlərinin normallaşdırılması və cəmiyyətə adaptasiyası baxımından əhəmiyyətlidir. Görmə, eşitmə, danışıq və ya hərəkət məhdudiyyətləri olan şəxslər üçün səsli idarəetmə, vizual simvollar və ya titrəyiş əsaslı geribildirim texnologiyaları ilə təchiz edilmiş tətbiqlər onların öz müstəqil həyatlarını daha sərbəst şəkildə idarə etmələrinə şərait yarada bilər.

Həmçinin, gözdən əlilliyi müəyyən edilən şəxslər üçün müstəqil hərəkət etmə, nəqliyyat vasitələrinə yönəldilmə və ətraf mühitlə əlaqə qurma imkanları təklif edəcək tətbiqin yaradılması ilə səsli təlimatlar, görüntü oxuma, və xəritə xidmətləri ilə bu şəxslərin müəyyən bir ərazidə hərəkətini asanlaşdıra bilər. Bununla yanaşı, eşitmə maneəsi olan şəxslər üçün tətbiqlər hazırlamaqla onlara danışıq dilini mətndən oxumaq imkanı yaradıla bilər.

Xüsusilə, artıq bir çox inkişaf etmiş ölkələrdə "assistive technology" adlanan bu texnologiyalar tətbiq edilir. Azərbaycanda da dövlət tərəfindən bu cür texnologiyaların hazırlanması və əlilliyi olan şəxslərə, xüsusilə də müharibə əlilliyi olan şəxslərə dövlət dəstəyi çərçivəsində təqdim olunması təşəbbüskar bir addım kimi dəyərləndirilə bilər. Bu texnologiya vasitəsilə yalnız tibbi və

sosial ehtiyaclar deyil, eyni zamanda psixoloji və təhsil ehtiyaclarının qarşılanması təmin edilə bilər. Bunlara misal olaraq, vizual dərsliklər, interaktiv öyrənmə platformaları və real vaxtlı tərcümə sistemləri eşitmə və danışıq imkanları məhdud olan şəxslər üçün mühim bir informasiya təminatı hesab edilə bilər.

Müharibə nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin əmək bazarına effektiv inteqrasiyası və onların məşğulluq imkanlarının artırılması həyata keçirilən sosial siyasətinin əsas istiqamətlərindəndir. Qanunvericiliyə əsasən, Azərbaycan Respublikasında mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisə və təşkilatlarda işçi sayı müəyyən həddi keçdikdə əlilliyi olan şəxslərin işə qəbul olunması üzrə kvotalar müəyyən edilir.

Bununla yanaşı, mövcud mexanizm daha da təkmilləşdirilərək müharibə səbəbindən əlilliyi yaranan şəxslərə ayrıca sosial kateqoriya kimi yanaşıb, onların bu kvotaya daxil edilməsi məqsədəuyğun olardı. Belə ki, mövcud tənzimləməyə əsasən, 25 nəfərlik işçi heyətinin hər əlavə üzvü üçün ən azı bir əlilliyi olan şəxsin işə qəbul edilməsi zəruri hesab edilirsə, təklif olunur ki, həmin kvota çərçivəsində ümumi səbəbdən əlilliyi olan şəxslərlə yanaşı, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin də işə qəbuluna dair ayrıca normativ öhdəlik müəyyən edilsin. Bu mexanizmin tətbiqi, yalnız ümumi səbəblərlə əlilliyi olan şəxslərin deyil, müharibə səbəbindən əlilliyi olan şəxslərin də sosial-iqtisadi həyata daha fəal şəkildə cəlb olunmasına və onların sosial müdafiəsinin daha da gücləndirilməsinə şərait yaradacaqdır.

Eyni zamanda, burada işəgötürənin marağının artırılması məqsədilə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin əmək fəaliyyətinə cəlb olunması zamanı həmin müəssisələrə müxtəlif vergi güzəştləri və digər maliyyə stimulları tətbiq olunması tövsiyə edilir. Bu cür yanaşma həm sözügedən şəxsləriniqtisadi fəallığının artırılması, həm də qurumların sosial məsuliyyətinin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edə bilər.

Müharibə nəticəsində əlilliyi yaranan şəxslərin, məşğulluğunun təmin edilməsi zamanı yalnız kvota tətbiqi ilə kifayətlənmək olmaz. Müharibə əlilliyi olan şəxslərin işə qəbul edilməsi ilə onların əmək bazarına effektiv və davamlı inteqrasiyası üçün müəssisələrdə uyğun iş mühitinin yaradılması və onların təcrübə proqramlarına daxil edilməsi zəruri bir addımdır. Sözügedən kateqoriyanın əmək hüququnun reallaşdırılması və onlara iş şəraitində bərabər imkanların təmin edilməsi məqsədilə şəxsin fiziki və psixoloji vəziyyətinə uyğunlaşdırılmış spesifik əmək mühiti formalaşdırılmalı, müəssisələrdə universal dizayn prinsiplərinə və inklüzivlik standartlarına cavab verən infrastrukturun yaradılması təmin edilməlidir.

Xüsusilə, hərəkət məhdudiyyətli müharibə əlilliyi olan şəxslər üçün işəgötürənlər tərəfindən giriş-çıxış zonalarının təkmilləşdirilməsi, pilləkənlər

əvəzinə xüsusi pandusların və ya liftlərin quraşdırılması, sanitar qovşaqların əlçatanlıq prinsipi əsasında layihələndirilməsi, həmçinin avtomobil park yerlərində əlilliyi olan şəxslər üçün ayrılmış sahələrin təmin olunması atılan addımlardan olmalıdır. Bundan başqa, həmin kateqoriyadan olan şəxslərin funksional imkanları və sağlamlıq vəziyyəti nəzərə alınmaqla, onların icra edəcəkləri işlərin mahiyyəti, həcmi və xarakteri də uyğunlaşdırılması vacibdir.

Nəticədə, edilən təkliflər inklüziv əmək bazarının formalaşdırılması, sosial ədalət prinsipinin təmin olunması və müharibə səbəbindən əlilliyi müəyyən edilən şəxslərin layiqli əməyə çıxış imkanlarının genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Müharibə əlilliyi olan şəxslərin cəmiyyətə sosial inteqrasiyası üçün onlarla bağlı yaradılacaq sosial dəstək platforması sözügedən kateqoriyadan olan şəxslərin bir-biri ilə əlaqə qurması, təcrübə mübadiləsi aparması və psixoloji dəstək almaq imkanı cəhətdən təqdirəlayiq bir addım kimi qiymətləndirilə bilər. Bu isə sosial təcrid olunmuş hissini aradan qaldırmaq üçün əsas silahdır.

Hal-hazırda müharibə veteranları, müharibə nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərlə müqayisədə daha geniş bir sosial qrupu təşkil edir. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər müharibə veteranı hesab edilir [Veteranlar haqqında Azərbaycan Respublikası Qanunu, 1994]. 2024-cü il iyulun 1-nə olan rəsmi statistikaya əsasən, ölkədə 184.094 nəfər şəxsə “müharibə veteranı” statusu verilmişdir [Xalqxeber.az, 2024].

Geniş bir kateqoriyanı əhatə edən müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra hüquqi və institusional tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 641 nömrəli Fərmanı ilə Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir. Bu təqaüdü, müharibə veteranlarının həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş addım kimi qiymətləndirmək olar. 2019-cu ilin aprel ayından 80 manat məbləğində ödənilən bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilmişdir (Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2019)

Ölkənin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və müvafiq dövlət təltifləri ilə təltif olunmuş işçilərə 14 təqvim günündək

ödənişsiz əmək məzuniyyətinin verilməsi nəzərdə tutulur [Əmək Məcəlləsi, 1999].

İstər müharibə əlilliyi olan şəxslər, istərsə də müharibə veteranları üçün xüsusi mentorluq proqramlarının yaradılması böyük əhəmiyyət kəsb edə bilər. Müxtəlif düşüncələri olan bu kateqoriyalardan olan şəxslərin təklif edəcəkləri startap layihələri onlara yeni karyera imkanları yarada bilər. Bu məqsədilə, ilk növbədə Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında qarşılıqlı və sistemli əməkdaşlıq mexanizmi qurulması və bu əməkdaşlıq çərçivəsində hər bir nazirliyin regional və mərkəzi strukturlarında veteranlarla birbaşa əlaqəli rəhbər şəxslərin mentor vəzifəsinə təyin olunaraq, onların karyera yönümlü məsləhət, hüquqi dəstək və psixososial adaptasiya proseslərində koordinator rolunu üzərlərinə götürməsi proqressiv bir addım olar. Belə bir sistemin qurulması, müharibə veteranları və müharibə səbəbindən əlilliyi yaranan şəxslərin yalnız əmək bazarına daxil edilməsiylə kifayətlənməyib, eyni zamanda onların karyera inkişafının, dayanıqlı sosial inteqrasiyasının və peşəkarlaşmasının dəstəklənməsini təmin edə bilər.

Beləliklə, müharibə əlilliyi olan şəxslər və müharibə veteranları üçün nəzərdə tutulan mentorluq proqramları onların həyatlarını keyfiyyətli şəkildə davam etdirmələri və cəmiyyətə daha çox töhfə vermələri üçün vacib bir imkan yaratmaqla onları cəmiyyətə yaxınlaşdırmaq məqsədini güdür.

**5.Böyük Qayıdış**

Müharibənin fəsadları yalnız infrastrukturun dağıdılması ilə məhdudlaşmır, o həm də insan talelərinə dərin və uzunmüddətli təsir göstərir. Erməni qəsbkarlarının silahlı basqınları zamanı öz doğma torpaqlarından zorakı şəkildə didərgin düşmüş şəxslər- məcburi köçkünlər müharibənin canlı şahidləridir. Onların bir çoxu evlərini, ailə üzvlərini, yaxınlarını itirmiş, girov düşmüş, soyuq qış günlərində dədə-baba yurdlarından qopardılmışdır.

Bu şəxslərin məşğulluğunun təmin edilməsi, yoxsulluq səviyyəsinin azaldılması və müxtəlif sosial problemlərinin həlli, o cümlədən rifahının yaxşılaşdırılması məqsədilə müvafiq dövlət proqramlarının layihəsini hazırlamaq Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrəDövlət Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün olmuş şəxslərin (bundan sonra - qaçqınlar və məcburi köçkünlər) yerləşdirilməsi, məskunlaşdırılması, repatriasiyası, sosial müdafiəsi, işğaldan azad olunmuş ərazilərdəonların sosial, mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində dövlət siyasətini

həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə, 2005].

Müharibənin acı travmaları nəticəsində bu insanlar təkcə fiziki deyil, həm də psixoloji və sosial cəhətdən dərin izlərə məruz qalmışlar. Son illərdə Azərbaycanın dövlət siyasətində prioritet istiqamətlərdən biri də bu əhalinin mərhələli şəkildə öz yurdlarına- işğaldan azad olunmuş ərazilərə qaytarılmasıdır. “Böyük Qayıdış” adlanan konsepsiya çərçivəsində artıq bir sıra rayon və kəndlərdə yaşayış massivləri salınmış, sosial infrastruktur bərpa olunmuş və köç mərhələləri həyata keçirilmişdir. Hökumət bu prosesin ardıcıllığını təmin etmək məqsədilə məşğulluq, təhsil, səhiyyə və digər sosial xidmət sahələrində konkret tədbirlər görməkdədir.İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi önəmə malikdir (Böyük Qayıdışa dair I Dövlət Proqramı, 2022). Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək 34 500 ailənin yəni, 140 min nəfərin doğma torpaqlarına qayıdışı təmin olunmalıdır [Hurriyyet.az, 2024].

Bununla yanaşı, münaqişənin yaratdığı psixoloji travmaların hələ də bir çox insanın gündəlik həyatına təsir göstərdiyini nəzərə alsaq, sosial müdafiə sistemində psixososial dəstək mexanizmlərinin gücləndirilməsi zərurəti ortaya çıxır. Qayıdış prosesinin uğurlu olması üçün təkcə infrastrukturun deyil, həm də insanların daxili rahatlıq və təhlükəsizlik hissinin bərpası vacibdir. Bunun üçün müvafiq ərazilərə qaytarılan ailələrlə işləyən sosial işçilər və psixoloqların cəlb edilməsi təklif oluna bilər. Onların iştirakı ilə fərdi və qrup psixoterapiyası, psixoloji dəstək proqramları və cəmiyyətə reinteqrasiya fəaliyyətləri həyata keçirilməsi nəzərə alına bilər.

Yekunda qeyd etmək lazımdır ki, məcburi köçkünlərin psixoloji vəziyyəti, onların sosial və mədəni identikliyinin qorunması, yalnız dövlətin və vətəndaş cəmiyyətinin birgə səyi ilə mümkündür. Böyük qayıdışın uğuru – yalnız fiziki torpağa deyil, həm də ruhən və mənəvi cəhətdən doğma yurda dönməklə mümkün olacaqdır.

**6.Nəticə**

Şəhid ailələri, müharibə əlilliyi olan şəxslər və müharibə veteranları kimi həssas əhali qrupunun sosial müdafiəsi sahəsində Azərbaycan Respublikasında formalaşmış hüquqi və institusional baza onların hüquqlarının qorunması və sosial rifahının təmin olunmasına yönəldilmişdir. Qəbul edilən normativ hüquqi aktlar, həyata keçirilən layihələrin hər biri həmin şəxslərə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Tədqiqat zamanı əldə edilən məlumatlar göstərir ki, postmüharibə dövründə göstərilən sosial xidmətlərin əhatə dairəsi və maliyyələşməsi əhəmiyyətli

dərəcədə artmışdır. Göstərilən kateqoriyadan olan şəxslərə ödənilən sosial ödənişlərin məbləği ilbəil artmaqla iqtisadi tarazlığa gətirib çıxarır. Həmçinin, bu qəbildən olan şəxslər üçün reabilitasiya mərkəzlərinin və sosial xidmət müəssisələrinin sayının artırılması, psixoloji və hüquqi dəstək xidmətlərinin genişləndirilməsi kimi təşəbbüslər, bu qrupların cəmiyyətə inteqrasiyasına ciddi təkan vermişdir.

Araşdırma nəticələri göstərir ki, dövlət tərəfindən tətbiq edilən tədbirlər yalnız mövcud ehtiyacların qarşılanması ilə məhdudlaşmamalı, eyni zamanda müharibədən zərər çəkmiş şəxslərin gələcək inkişaf imkanlarını da nəzərə alan, dayanıqlı və çevik mexanizmlərə əsaslanmalıdır. Bu məqsədlə, məqalədə təqdim edilən sosial ədalət prinsipinə əsaslanan, institusional dayanıqlılığı təmin edən və müasir çağırışlara cavab verən təkliflər sosial müdafiənin effektivliyini artırmaqla yanaşı, onların əmək bazarına çıxışını təmin etmək məqsədi güdür.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (1999). *Azərbaycan Respublikasının Əmək Məcəlləsi*.

**2.** Azərbaycan Respublikası Prezidenti. (2021, 25 iyun). *Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası (Fərman №1380)*.

**3.** Azərbaycan Respublikasının Hökuməti. (2022). *Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı*.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti. (2007). *Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi Qaydaları*.

**5.** Azərbaycan Respublikasının Hökuməti. (2005). *Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə*.

**6.** Azərbaycan Respublikası Prezidenti. (2019). *Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Fərman*.

**7.** Azərbaycan Respublikasının Hökuməti. (1994). *Veteranlar haqqında Qanun*.

**8.** Azərbaycan Respublikasının Hökuməti. (1993). *Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Qanun*.

**9.** Report.az. (2016, 16 dekabr). Dünyada hər 6 nəfərdən biri münaqişə ocağında yaşayır. https://report.az/amp/dini-xeberler/dovlet-komitesinin-sedri-dunya-ehalisinin-her-6-neferinden-biri-munaqise-ocaginda-yasayir/
**10.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2021, 10 iyun). “Məşğulluq marafonu”na start verilir. https://sosial.gov.az/media/xeberler/post_457829
**11.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi. (2021, 23 oktyabr). “Mənim atam qəhrəmandır” və “Mənim oğlum qəhrəmandır” layihələri çərçivəsində şəhidlərin anım tədbiri keçirildi. https://mod.gov.az/az/pre/38089.html
**12.** AZƏRTAC. (2025, 18 mart). Sosial dəstək paketi şəhid ailə üzvləri və müharibə iştirakçıları olan 131 min şəxsi əhatə edib. https://azertag.az/xeber/sosial_destek_paketi_sehid_aileleri_uzvleri_ve_muharibe_istirakchilari_olan_131_min_sexsi_ehate_edib-3468027
**13.** Hurriyyet.az. (2024, 19 avqust). Qarabağa Böyük Qayıdış davam edir – Neçə nəfər doğma torpaqlarına qayıdıb? https://hurriyyet.az/az/post/qarabaga-boyuk-qayidis-davam-edir---ne-qeder-insan-dogma-torpaqlarina-qayidib-430353
**14.** Respublika-news.az. (2024, 5 iyun). Şəhid ailələrinə və qazilərə dövlət qayğısı. https://respublika-news.az/az/news/sehid-ailelerine-ve-qazilere-dovlet-qaygisi
**15.** Azerbaijan-news. (2024, 10 fevral). 2024-cü ildə növbədə olan müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin hamısı avtomobillə təmin edilib. https://www.facebook.com/photo.php?fbid=1050990697057209&id=100064388663799&set=a.290357029787250
**16.** Xalqxeber.az. (2024, 27 avqust). Qarabağ müharibəsi veteranlarının sayı artıb. https://xalqxeber.az/society/106886-qarabag-muharibesi-veteranlarinin-sayi-artb-resm.html

## REFERENCES

**1.** Labour Code of the Republic of Azerbaijan. (1999). *Labour Code of the Republic of Azerbaijan*. (in Azerbaijani)
**2.** President of the Republic of Azerbaijan. (2021, June 25). *Rules for providing services at unified coordination centers for the applications of family members of martyrs, military personnel injured in connection with the war, and persons with determined disabilities (Decree No. 1380)*. (in Azerbaijani)
**3.** Government of the Republic of Azerbaijan. (2022). *I State Program on the Great Return to the liberated territories of the Republic of Azerbaijan*. (in Azerbaijani)

**4.** Cabinet of Ministers of the Republic of Azerbaijan. (2007). *Rules for the appointment and payment of the President's stipend for the family of martyrs*. (in Azerbaijani)

**5.** Government of the Republic of Azerbaijan. (2005). *Statute on the State Committee for Refugees and Internally Displaced Persons of the Republic of Azerbaijan*. (in Azerbaijani)

**6.** President of the Republic of Azerbaijan. (2019). *Decree on the establishment of the President's stipend for war veterans*. (in Azerbaijani)

**7.** Government of the Republic of Azerbaijan. (1994). *Law on Veterans*. (in Azerbaijani)

**8.** Government of the Republic of Azerbaijan. (1993). *Law on perpetuating the name of martyrs and benefits for martyr families*. (in Azerbaijani)

**9.** Report.az. (2016, December 16). One in every six people in the world lives in a conflict zone. https://report.az/amp/dini-xeberler/dovlet-komitesinin-sedri-dunya-ehalisinin-her-6-neferinden-biri-munaqise-ocaginda-yasayir/ (in Azerbaijani)

**10.** Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan. (2021, June 10). "Employment marathon" is launched. https://sosial.gov.az/media/xeberler/post_457829 (in Azerbaijani)

**11.** Ministry of Defense of the Republic of Azerbaijan. (2021, October 23). Memorial ceremony for martyrs held within the projects "My father is a hero" and "My son is a hero." https://mod.gov.az/az/pre/38089.html (in Azerbaijani)

**12.** AZERTAC. (2025, March 18). Social support package covers 131 thousand family members of martyrs and war participants. https://azertag.az/xeber/sosial_destek_paketi_sehid_aileleri_uzvleri_ve_muharibe_istirakchilari_olan_131_min_sexsi_ehate_edib-3468027 (in Azerbaijani)

**13.** Hurriyyet.az. (2024, August 19). The Great Return to Karabakh continues – How many people have returned to their homeland? https://hurriyyet.az/az/post/qarabaga-boyuk-qayidis-davam-edir---ne-qeder-insan-dogma-torpaqlarina-qayidib-430353 (in Azerbaijani)

**14.** Respublika-news.az. (2024, June 5). State care for families of martyrs and war veterans. https://respublika-news.az/az/news/sehid-ailelerine-ve-qazilere-dovlet-qaygisi (in Azerbaijani)

**15.** Azerbaijan-news. (2024, February 10). All persons with war-related disabilities on the waiting list in 2024 have been provided with cars. https://www.facebook.com/photo.php?fbid=1050990697057209&id=100064388663799&set=a.290357029787250 (in Azerbaijani)

**16.** Xalqxeber.az. (2024, August 27). The number of Karabakh war veterans has increased. https://xalqxeber.az/society/106886-qarabag-muharibesi-veteranlarinin-sayi-artb-resm.html (in Azerbaijani)